

**Nahidə ƏHMƏDOVA**

## VƏTƏN YARASINA MƏLHƏM OL, ƏSGƏR

Şuşasız, Laçınsız Vətən olarmı?
Bayquşlar bağında məskən salarmı?
Qisas qiyamətə söylə, qalarmı?
Vətən yarasına məlhəm ol, əsgər!
Döyüşə gedirsən, yaxşı yol, əsgər!

Doğma Qarabağın yolları bağlı,
Gözəl Kəlbəcərin qolları bağlı.
Daha dağların da sinəsi dağlı,
Vətən yarasına məlhəm ol, əsgər!
Döyüşə gedirsən, yaxşı yol, əsgər!

Qaytar Zəngilanı, qanınla qaytar,
Qaytar Qubadlını, canınla qaytar.
Düşmən tapdağından Göyçəni qurtar,
Vətən yarasına məlhəm ol, əsgər!
Döyüşə gedirsən, yaxşı yol, əsgər!

Yolunu gözləyir Vedi dağları,
Talanır, quruyur Vətən bağları.
Torpağın köksündən qan sızır, sarı
Vətən yarasına məlhəm ol, əsgər!
Döyüşə gedirsən, yaxşı yol, əsgər!

Zəngəzur çağırır, səsinə səs verir,
Yad əldə boğulur gedib nəfəs ver.
Düşmənə qalmasın bircə qarış yer,
Vətən yarasına məlhəm ol, əsgər!
Döyüşə gedirsən, yaxşı yol, əsgər!

Borçalı, İrəvan unudularmı?
Təbriz tək dünyada bir şəhər varmı?
Dərbənd də vətəndi, keçmək olarmı?
Vətən yarasına məlhəm ol, əsgər,
Döyüşə gedirsən, yaxşı yol, əsgər!

## ALLAH ADAMIDI BU YER ÜZÜNDƏ

*Atam Xəqaniyə*

Dünyada dağ kimi dayağım odu,
Yoluma nur saçan çırağım odu.
Haqdan od alıbdı, sönərmi odu?
Böyüklük, ucalıq gördüm özündə,
Allah adamıdı bu yer üzündə.

Könlümün sevinci, din-imanıdı,
Ümidi, inamı, həm gümanıdı.
Ömrümün, günümün ən xoş anıdı,
Böyüklük, ucalıq gördüm özündə,
Allah adamıdı bu yer üzündə.

Üzündə təbəssüm, gözlərində nur,
Onunla fəxr edib duyuram qürür.
Ata sevinciylə ürəyim vurur,
Böyüklük, ucalıq gördüm özündə,
Allah adamıdı bu yer üzündə.

Bilin Nahidənin haqq səsidi o,
Döyünən ürəyi, nəfəsidi o.
Könlümün arzusu, həvəsidi o,
Böyüklük, ucalıq gördüm özündə,
Allah adamıdı bu yer üzündə.

## ƏSMƏ, KÜLƏK

*Qızım Leylanın dilindən*

Əsmə külək, dayan bir,
Sənə mənim sözüm var.
Belə coşub hirslənmə,
Çiçək açıb ağaclar.
Hərəsi bir meyvədi,
Çiçəklərə dəymə sən.
Qəzəbini cilovla,
Ağacları döymə sən.

Çiçəkləri qoparsan,
Ağac barsız qalacaq.
Hər bir çiçək payızda
Alma, armud olacaq.

## DƏYMƏ, KÖNLÜMƏ DƏYMƏ

Gecə-gündüz can ağlar,
Dağlarda duman ağlar.
Yaralıdı, qan ağlar,
Dəymə, könlümə dəymə.

Səni canım bilmişəm,
Din-imanım bilmişəm.
Səni deyib gəlmişəm,
Dəymə, könlümə dəymə.

Baharım, yazım sənsən,
Şirin avazım sənsən.
Taledən yazım sənsən,
Dəymə, könlümə dəymə.

Ürəyimi dərd didir,
Ömrümü namərd didir.
Könlüm Kəbə evidir,
Dəymə, könlümə dəymə.

Ədalət 2019.- 26 aprel.- S.8.